# HACIQABUL

№ 15 (649)

25 iyun 2016-cı il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# İctimai dinləmələr keçirildi

***Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının icrası, təbliği və tətbiqi vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova tərəfindən Hacıqabul rayonunda ictimai dinləmələr keçirilmişdir.***



Tədbirdən öncə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov və Ombudsman Elmira Süleymanova ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə tər gül dəstələri düzmüşdür. Sonra ulu öndərin adını daşıyan Mərkəzdə dahi liderin keçdiyi şərəfli ömür yolunu əks etdirən eksponatlarla tanış olmuş,




Mərkəzin dərnək üzvlərinin əl işlərindən ibarət sərgiyə tamaşa etmişlər.

Rayon İcra Hakimiyyətinin akt zalında keçirilən tədbirdə rayonun hüquq-mühafizə orqanlarının, inzibati-ərazi nümayəndəliklərinin, bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, gənclər, ağsaqqallar, ziyalılar iştirak edirdi. Rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov tədbiri açaraq ictimai dinləmələrin əhəmiyyətini vurğuladı, Prezident İlham Əliyevin yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsinin dayandığını qeyd etdi. RİH Başçısı çıxışında vurğuladı ki, ötən müddətdə ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsində qanunçuluğun artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə genişmiqyaslı tədbirlər görülmüşdür. Bu islahatların məntiqi davamı olaraq dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir. Strateji əhəmiyyətli bu sənəd insan hüquq və azadlıqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan vermişdir. Milli Fəaliyyət Proqramının təsdiqi ulu öndər Heydər Əliyevin əsasını qoyduğu hüquq islahatlarının məntiqi davamıdır.

1998-ci il fevralın 22-də ümummilli lider "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış və bu sənəddə insan hüquqları sahəsində həyata keçirilən işlərin istiqamət və konsepsiyası dəqiq müəyyən edilmişdir. 18 iyun 1998-ci il tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. 28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun qəbulu, daha sonra Ombudsman təsisatının yaradılması və fəaliyyət göstərməsi üçün hüquq və maddi bazanın təşkili də insan və vətəndaş hüquqlarının təmini istiqamətində respublikada həyata keçirilən hüquqi islahatların məntiqi davamı olub, ölkəmizin Avropa və dünya məkanına sürətlə inteqrasiyasına zəmin yaratmışdır.

Milli Fəaliyyət Proqramına uyğun olaraq rayonumuzda da xeyli işlər görülmüş, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması, mövcud problemlərin aradan qaldırılması məqsədilə rayon İcra Hakimiyyətində həftənin bütün iş günlərində RİH Başçısı, müavinləri və şöbə müdirləri tərəfindən vətəndaşların qəbulu keçirilir. Rayonun kənd və qəsəbələrində insanların üzləşdikləri problem və çətinlikləri aradan qaldırmaq və onu yerindəcə həll etmək üçün RİH Başçısının səyyar qəbulları keçirilir.

Tədbirdə çıxış edən Ombudsman Elmira Süleymanova iştirakçıları salamlayaraq, yerlərdə belə görüşlərin keçirilməsinin əhəmiyyətini vurğuladı. Dini və tolerantlığın hökm sürdüyü, "Multikulturalizm ili" elan olunduğu Azərbaycanda iqtisadi, sosial və digər sahələrdə inkişafın davam etdiyini, insan hüquqlarının müdafiəsinin dövlətin diqqətində olan prioritet məsələlərdən olduğunu qeyd etdi. Müvəkkil 2011-ci ildə dövlət başçısının Sərəncamı ilə təsdiq olunmuş Milli Fəaliyyət Proqramının 2006-cı ildən uğurla həyata keçirilən İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Proqramının məntiqi davamı olaraq yeni istiqamətlər və tədbirlər müəyyən etdiyini bildirdi. Qeyd etdi ki, bu gün xalqımız hərbi münaqişə şəraitində yaşayır. Buna baxmayaraq respublikamız inkişaf edir, xalqımızın yaşayış səviyyəsi artır. Aprel ayının əvvəlində biz böyük qələbənin carçısı olan kiçik qələbəni yaşadıq. Qəhrəman ordumuz düşməni darmadağın edərək xeyli ərazimiz geri qaytarıldı. Bu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ordumuzun və əhalimizin vəhdət təşkil etdiyinin, yüksək nizam-intizamla, mütəşəkkil bir qüvvə kimi vahid səylərin birləşməsinin nəticəsidir. E. Süleymanova ölkəmizin hərbi qüdrətinin və hərbi sənayenin daha da artdığını, silah istehsalı prosesinin inkişaf etdiyini qeyd etdi. Dövlətimizin humanist siyasəti nəticəsində ölkəmizdə son illərdə 61 əfv sərəncamının və 11 amnistiya aktının, bu amnistiya aktlarından dördünün Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunduğu, sonuncu amnistiyanın 10 min məhkuma şamil edildiyi, 3500 məhkumun azadlığa çıxacağı diqqətə çatdırıldı.

Tədbirdə rayon prokuroru Tariyel Qurbanov, rayon Polis Şöbəsinin rəisi Ramazan Kərimov, rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov, şəhər 10 saylı məktəbin direktor əvəzi Xuraman Məmmədova çıxış edərək insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlər barədə, təmsil etdikləri qurumların fəaliyyəti və digər məsələlərlə bağlı məlumatlar vermişlər.

***"Hacıqabul"***

***Fotolar Rəsul Mirzəyevindir.***



# Dövlət qulluğunun əsas qüvvəsi onun peşəkar kadrlarıdır

## *Dövlət qulluqçuları peşə bayramlarını qeyd etdilər*

İyunun 23-də peşə bayramlarını qeyd edən rayonumuzun dövlət qulluqçuları başda rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov olmaqla ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər, dahi şəxsiyyətə ehtiramlarını bildirdilər, abidə önünə tər gül dəstələri düzdülər.

Rayon Heydər Əliyev Mərkəzində davam edən tədbiri rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov açaraq rayonun dövlət qulluğunda çalışan işçilərini peşə bayramları münasibəti ilə təbrik etdi. Peşə bayramının təsis olunduğu günü qeyd edərək bildirdi ki, respublikamızda dövlət qulluqçularının peşə bayramı günü artıq 10-cu ildir ki qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis olunmuş bu peşə bayramı ölkə rəhbərliyinin dövlət qulluqçularına qayğı və diqqətinin, onların çətin və şərəfli əməyinə verilən qiymətin əyani təzahürüdür. RİH Başçısı bu gün Azərbaycanda müasir və demokratik idarəetmə modelinin, səmərəli və şəffaf dövlət qulluğu mexanizminin fəaliyyət göstərdiyindən danışdı. Qeyd etdi ki, dövlət qulluğu anlayışı "cəmiyyətə, xalqa qulluq" mənasını ifadə edir. Vətəndaş, dövlət xidmətlərinin istehlakçısı, onun məmnunluq səviyyəsi isə dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi üçün əsas meyar hesab olunur.

*(Davamı 2-ci səhifədə)*

# 2016-cı il iyul ayı üçün Hacıqabul rayon İcra Hakimyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| Sıra №-si | Vəzifəsi | Həftənin günləri | Qəbul saatı |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:** (02120) 4-41-91, (02120) 4-41-58

# Böyük xilaskarın qayıdışı

***15 iyun Tanrının Azərbaycan xalqının xilası üçün bəxş etdiyi tarixi bir gündür. Həmin gün Azərbaycan məmləkəti, xalqı öz iradəsinin nəyə qadir olduğunu üzə çıxararaq özünün nicatı olan ümummilli lider Heydər Əliyevi ikinci dəfə hakimiyyətə gətirdi, bununla da vətənimizin ən yeni tarixinin parlaq səhifəsi yazıldı. Xalqımızın dahi rəhbərə inamı məmləkəti üzləşdiyi parçalanmaqdan, dağılmaqdan, hərraca qoyulmaqdan xilas etdi. Vətənimizdə insanın insan kimi yaşamasına meydan açıldı, insanların hüquq və azadlıqlarının qorunması və möhkəmləndirilməsinə zəmin yarandı, dövlətin dayaqları daha da möhkəmləndi.***

15 iyun milli Qurtuluş günü münasibəti ilə rayon Heydər Əliyev Mərkəzində tədbir keçirildi. Tədbirdən öncə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və bir qrup tədbir iştirakçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər gül dəstələri düzdülər. Sonra Mərkəzdə davam edən tədbiri RİH Başçısı Əhməd Muxtarov açaraq bayram münasibəti ilə tədbir iştirakçılarını, eləcə də hacıqabulluları təbrik etdi. Bu günün tarixi əhəmiyyətindən danışaraq qeyd etdi ki, 1993-cü ilin iyun hadisələri xalqımızın yaddaşına möhkəm həkk olunubdur. Son dərəcə mürəkkəb bir dövrdə xalqın xahişi və təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin etməklə, vətəndaş qarşıdurmasını aradan qaldırmaqla, respublikanı parçalanmaq təhlükəsindən qurtarmaqla sözün əsl mənasında Milli qurtuluşu təmin etdi. Ulu öndərimizin Ali Sovetin sədri seçildiyi 15 iyun tarixinin sonradan Milli Qurtuluş Günü elan edilməsi və hər il əlamətdar gün kimi qeyd edilməsi məhz bu reallığa əsaslanır. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı bir zərurət idi. Bu qayıdışın daha bir nəticəsi xalqın özünə inam hissinin bərpası idi. Təsadüfi deyil ki, Heydər Əliyev Naxçıvandan Bakıya dönən gün bütün Azərbaycan sevinc içərisində idi. Ürəklərin kədərinə, həsrətinə, ümidsizlik və iztiraba son qoyulmuşdu. Xalq inandığı və etibar etdiyi oğlunu, atasını, rəhbərini qəlbinin səvinci ilə qarşıladı. Ötən 23 ildə Azərbaycan ictimai-siyasi həyatının müxtəlif sferalarında əldə olunmuş uğur və nailiyyətlər birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərmişdir.

Heydər Əliyev siyasi kursu bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir.

Ümummilli liderin layiqli davamçısı və varisi Prezident İlham Əliyev Azərbaycanı daim irəli aparır, onu bütün dünyada tanıdır və söz sahibi olan dövlət səviyyəsinə qaldırmaq üçün bütün imkanlardan yararlanır. Xalqımız gələcəyə böyük ümidlə baxır və öz taleyini Heydər Əliyev milli dövlətçilik ideyalarının sadiq davamçısı, yüksək intellektə malik, praqmatik düşüncəli siyasətçi olan İlham Əliyevə etibar etmişdir. Böyük qurtuluşdan başlanan bu möhtəşəm yol Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, doğma Vətənimiz getdikcə güclənir və inkişaf edir.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov, rayon Ailə və Uşaqlara Dəstək Mərkəzinin direktoru Aynur Qasımzadə, II Udulu kənd İƏD üzrə nümayəndə Əmrah Süleymanov, şəhər 8 saylı tam orta məktəbin müəllimi Nüşabə Maqsudova, Navahı kənd 2 saylı tam orta məktəbin direktoru Zaur Qasımov çıxış etdilər.

15 iyun Milli Qurtuluş günü həm də bayram konserti ilə yadda qaldı. Hərbi şəhərcik ərazisindəki istirahət parkında rayonun mədəniyyət və incəsənət ustaları sakinlər qarşısında geniş konsert proqramı ilə çıxış etdilər.

***"Hacıqabul"***

# Milli ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır



***İyunun 23- də "Ordumuz qürurumuzdur" mövzusunda 26 iyun Silahlı Qüvvələr gününə həsr olunmuş tədbir keçirildi. Tədbiri rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçisi Əsabir Məmmədov açaraq milli ordumuzun yaranma tarixindən, hazırki vəziyyətdə ordunun gücündən, qüdrətindən danışdı.***

Ordu quruculuğunun daha da inkişaf etdirilməsi üçün ölkə əhalisində, xüsusilə gənclərdə milli ruh və hərbi vətənpərvərlik tərbiyyəsinin yüksəldilməsinin vacibliyini qeyd etdi.

Vurğuladı ki, ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra ölkədə bütün sahələrdə başlanan inkişaf ordu quruculuğu sahəsində də özünü göstərdi, əhalinin dövlətə olan inamı və sevgisi də artdı. Hazırda ordumuz Cənubi Qafqazda ən güclü və yüksək döyüş qabiliyyətli ordudur.

Biz ordumuzun gücünü, qüdrətini 2-5 aprel tarixlərində cəbhədə baş verən döyüşlərdə gördük. Ordumuz böyük zəfər qazanaraq strateji yüksəklikləri düşməndən geri aldı. Azərbaycan bayrağı qürurla həmin yüksəkliklərə sancıldı. Bu gücü tək biz deyil, bütün dünya gördü və haqq işimizi müdafiə etməyə başladı. Azərbaycan Prezidenti sülhün tərəfdarıdır və münaqişənin sülh yolu ilə həllinə çalışır.

YAP rayon təşkilatının Aparat rəhbəri İsmayıl İbrahimov "Ordumuz qürurumuzdur" mövzusunda məruzə ilə çıxış edərək bildirdi ki, xalqımız hər il 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününü təntənəli şəkildə bayram edir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Milli Ordumuz bu gün ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha da güclənir. Dövlətin əsas atributlarından biri onun güclü ordusunun olmasıdır. Yalnız güclü dövlətin güclü ordusu olur. Azərbaycanda ilk dəfə ordu quruculuğu 1918-ci ildə Şərqdə ilk demokratik ölkə olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılıb. O vaxtlar Rusiya imperiyasının müsəlman xalqlarına həqarətli münasibəti, onların orduda xidmətdən azad edilməsi bu xalqların hərbi işləri yadırğamasına gətirib çıxarmışdı. 1917-1918-ci illərdə erməni təcavüzünün güclənməsi Azərbaycan türklərini fiziki cəhətdən məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış vəziyyət təcili olaraq ordu quruculuğuna başlamağı tələb edirdi. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı.Avqustun 1-də Azərbaycan Xalq Cümhuruyyətinin Hərbi Nazirliyi təsis edildi. İstedadlı general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əlağa Şıxlinski nazir müavini təyin edildilər.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Azərbaycan ordusunun ənənələri müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir. Bu isə ulu öndərimiz Heydər Əliyevin ciddi səyləri, yorulmaz əməyi nəticəsində mümkün olmuşdur. Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrin quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan vermiş, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratmışdır.

Tədbirdə çıxış edən YAP rayon təşkilatı Gənclər Birliyinin sədri Saleh Ələskərov, şəhər 6 saylı tam orta məktəbin tarix müəllimi Gülnar Bünyatova, ehtiyattda olan zabit Fərid Qasımov, gənc YAP üzvü Şəbnəm Mehtiyeva, şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb-liseyin hərbi hazırlıq müəllimi Ramil İbişov rəşadətli milli ordumuzun gücündən, qəhrəman əsgərlərimizin yüksək döyüş qabiliyyətindən danışdılar, bu gün xalqımızda, xüsusən gənclərimizdə vətənpərvərlik hissinin yüksək olduğunu qeyd etdilər.Vurğuladılar ki, Azərbaycan xalqı kimi hacıqabullular da ordumuzun cəbhə bölgələrində əldə etdiyi uğurlara sevinir, qəhrəman əsgərlərimizə dəstək nümayiş etdirirlər.

***"Hacıqabul"***

# Son zəng mərasimləri xoş anlarla yadda qaldı

***Bu il rayonumuzun 33 ümumtəhsil məktəbindən XI sinif bazasından 600 nəfər, IX sinif bazasından isə 743 nəfər məzun adını qazanmışdır***





Respublikamızın hər yerində olduğu kimi Hacıqabul rayonunda da orta məktəblərdə "Son zəng" tədbirləri keçirildi. Həmin gün rayonumuzun 33 ümumtəhsil orta məktəbində ənənəvi olaraq təntənəli şəkildə qeyd olunmuşdur."Son zəng" həyəcanı yaşanan məktəblərdə həmin gün bir canlanma var idi.

Rayonumuzun ümumtəhsil məktəblərində təhsil alan 9614 şagirdin bu il 1334 nəfəri məzun adını qazanmışdır. Bunlardan 600 nəfəri 11-ci sinfi, 743 nəfəri isə 9-cu sinfi bitirən məzunlardır. Məktəblərin rəhbərləri, valideynlər, şagirdlər tərəfindən böyük hazırlıq işləri görülmüş, son zəngin yüksək səviyyədə, bütün məzunların və iştirakçıların uzun illər yadında qalacaq əlamətdar hadisəyə çevrilməsi üçün əllərindən gələni əsirgəməmişlər.Məktəblərin həyəti də "Son zəng" günü bayramsayağı bəzədilmişdi. Artıq son zəng ərəfəsində duyğulu anlar yaşayan müəllimlər, məzunlar və onların valideynləri bu sevinc, bir az da kədər qarışıq anlarda zəngin ovqata köklənmişdilər. Unudulmaz günün hərarətinə toplaşanlar arasından mikrofon önünə keçib ürək sözlərini, xoş arzularını söyləyənlər məzunlara könül dolusu uğurlar arzulayıb, sentyabrda məktəbə gələcək, sinif otaqlarına ilk kövrək addımlarını atacaq birincilərə təbrik və xoş arzularını çatdırdılar. Musiqi sədalarının müşayəti ilə məzunlar səhnəciklər, rəqs nümunələri, şeirlər, mahnılarla onların bayram şənliyinə yığışan görüş iştirakçılarına maraqlı və yaddaqalan bir gün yaşatdılar. Qabaqcıl, təhsildə fərqlənən məzunların və kövrək addımlarla uğur zirvəsinin astanasına irəliləyən birincilərin iştirakı ilə "Son zəng" çalındı, "Bilik açarı" birincilərə təqdim olundu.

Son zəng mərasimləri şəhərimizin bütün məktəblərində, xüsusən də 1,2, 4, 5,8,9,10 saylı məktəblərdə, Rəncbər və Navahı kənd orta məktəblərində xüsusi təntənə ilə qeyd olundu. Mərasimlərdə rayon İcra Hakimiyyətinin, rayon Təhsil Şöbəsinin, rayon mətbuatının, nümayəndələri iştirak etmiş, məzunlara və məktəb kollektivlərinə xoş arzularını bildirmişlər.

Qeyd olunmuşdur ki, bu il də məzunlarımız onlara dövlət səviyyəsində göstərilən diqqətə, qayğıya, müasir tələblərə cavab verən təhsil şəraitinə ali məktəblərə uğurlu imtahan verməklə, əsl vətəndaş kimi yetişməklə cavab verəcəklər.

Sonra söz musiqiyə, nəğməyə verilmiş, gül-çiçək yağışına bələnmiş məktəblərin geniş həyətində şənlik xeyli davam etmişdir.

***"Hacıqabul"***

# Dövlət qulluğunun əsas qüvvəsi onun peşəkar kadrlarıdır

*(Əvvəli 1-ci səhifədə)*

Qürur hissi ilə qeyd edə bilərik ki, Prezident İlham Əliyevin siyasi iradəsi ilə "vətəndaşa, insan faktoruna yönümlü" müasir idarəetmə modelinin formalaşdırılması nəticəsində səmərəli və şəffaf dövlət qulluğu mexanizmi formalaşdırılmış, "vətəndaş-dövlət qulluqçusu" münasibətlərində məzmunun dəyişməsi, dövlət qulluqçularının vətəndaşa yönümlü, nəzakətli, fasiləsiz, şəffaf və çevik xidmət göstərməsi təmin olunmuşdur. Ölkəmizdə milli-tarixi dövlətçilik ənənələrinə söykənən dövlət qulluğunun insan kapitalının inkişaf etdirilməsinə yönələn səmərəli kadr siyasəti əsasında qurulduğunu qeyd edən RİH Başçısı dövlətin və dövlətçiliyin güclənməsi, vətəndaş məmnunluğunun təmini üçün çalışan bütün dövlət qulluqçularına öz şərəfli peşələrində uğurlar arzuladı. Dövlət başçısının dövlət qulluqçularına diqqət və qayğısından danışan natiq, onu da vurğuladı ki, hər il peşə bayramları ərəfəsində dövlət başçısı dövlət qulluqçularının əməyini qiymətləndirir, onları yüksək mükafatlarla mükafatlandırır. Dövlət başçısı tərəfindən mükafatlandırılan dövlət qulluqçuları sırasında rayonumuzun da dövlət qulluqçularının olduğunu qeyd etdi. Sonra RİH Başçısı işində, dövlət qulluğunda fərqlənən bir neçə nəfərə RİH Başçısının Fəxri Fərmanlarını təqdim etdi.

Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov, rayon Statistika İdarəsinin müdiri Elman Nəcəfov, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Beydulla Qarayev, Muğan qəsəbə İƏD üzrə nümayəndə Tamella Ağayeva çıxış edərək peşə bayramı münasibəti ilə dövlət qulluqçularını təbrik etdilər.

***"Hacıqabul"***

# "Fitnə" filminə baxış keçirildi

***Rayon Heydər Əliyev Mərkəzində dini radikalizmlə mübarizədən bəhs edən "Fitnə" sənədli filminə baxış keçirildi***

Filmin nümayişindən əvvəl rayon İcra Hakimiyyəti Başçısının müavini Zeynəb Əsgərova çıxış edərək dini radikalizmə qarşı tədbirlərin kəmiyyət və keyfiyyət baxımından yeni mərhələdə, ardıcıl və intensiv şəkildə həyata keçirilməsindən danışdı. Dini radikalizmlə mübarizə çərçivəsində respublikamızın bütün bölgələrində regional konfransların, çoxsaylı seminarların, görüşlərin, həmçinin müxtəlif kitab və digər çap materiallarının nəşr edilərək yayılmasını qeyd etdi. Vurğuladı ki, dini radikalizmin fəsadlarının cəmiyyətin bütün təbəqələrinə çatdırılmasında, onların məlumatlandırılmasında və bu mübarizəyə cəlb olunmasında "Fitnə" sənədli filmi böyük rol oynayacaqdır.

Sonra filmə baxış keçirildi. Filmdə dini radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəfləri əks olunmuşdu. Filmdə dini radikalizmin qurbanı olmuş insanların, eləcə də cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərin timsalında bu problemin cəmiyyət və dövlətimiz üçün nə qədər təhlükəli olduğu dolğun şəkildə əks olunub. Eyni zamanda, Azərbaycanda dinlər, məzhəblər arasında tarixən mövcud olmuş birlik və bərabərlik, xalqımızın tolerantlıq keyfiyyətləri, dövlətin bu sahədə həyata keçirdiyi siyasətin mahiyyəti qısa, lakin aydın şəkildə işıqlandırılıb.

Sonra ekran əsəri ətrafında müzakirələr aparıldı. Müzakirələrdə gənclərimizin maarifləndirilməsi, onların milli-mənəvi dəyərlərimizə bağlılığının qorunması, milli yaddaşın möhkəmlənməsi, ölkəmizdə mövcud tolerant mühitin təbliği baxımından bu filmin böyük əhəmiyyət daşıdığı qeyd olundu. Milli-mənəvi dəyərlərin qorunub saxlanması, gənc nəsilə aşılanması, gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə məlumatlandırılmasının təmin edilməsi üçün maarifləndirici tədbirlərin keçirilməsinin önəmi vurğulandı. Qeyd olundu ki, biz İslam dünyasının bir parçasıyıq və islam ölkələrində baş verən proseslər bizim də gənclərə təsir edir. Odur ki, gəncləri dini radikal qrupların təsirindən qorumaq üçün təbliğat vasitələrindən biri də filmlərdir.

Filmə rayonun təhsil, mədəniyyət müəssisələrində kütləvi baxış keçirilməsinin məqsədəuyğunluğu qeyd olundu.

***"Hacıqabul"***

***Fotolar Rəsul Mirzəyevindir.***

# 11 ayın sultanı - müsəlmanların saflaşma ayı




Qurani-Kərimdə də deyilir: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi sizə də vacib edildi. Bəlkə(bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz. ( Bəqərə surəsi 183-cü ayə) ."

İnsanlar oruclug vaxtı günün işıqlı vaxtı ümumiyyətlə, heç bir qida və su qəbul etməməlidirlər. Doğrudur, bu orucluğun əsas şərtidir. Ancaq orucluğun şərtləri təkcə ac və susuz qalmaqla bitmir. Oruc insanlar bu müddətdə dünyanın bütün zövqlərindən çəkinməli, aclığı və digər məhrumiyyətləri bütünlüklə hiss etməlidir. Bununla müsəlmanlar Qurani-Kərimin tələb etdiyi kimi heç olmazsa ildə bir ay cəmiyyətin bütün üzvləri ilə bərabər vəziyyətdə yaşamalı, zövqü-səfa içərisində yaşayan müsəlman aclığın, məhrumiyyətin nə olduğunu hiss etməli, ehtiyac içərisində yaşayan din qardaşlarının halını başa düşməlidir. Oruc tutan insanlar bütün pis əməllərdən uzaq durmalı və bu tədricən təkcə Ramazan ayında yox, bütün həyatı boyu bir vərdişə, qanuna çevrilməlidir.

Bu il oruclug ayı kimi tanınan, İslam aləmində müqəddəs ay sayılan Hicri təqviminin Ramazan ayı 7 iyun tarixindən başlanmışdır. 7 iyun Ramazan ayının-orucluğun ilk günüdür. Bu gündən başlayaraq bütün dindar müsəlmanlar oruc tutur, günün əsas hissəsini ibadətlə keçirirlər. Ramazan ayı İslam inanclarına görə müqəddəs ay sayılır. İslamın müqəddəs kitabı Qurani-Kərim Allahın rəsuluna-həzrət peyğəmbər Məhəmmədə(S.Ə.S) vəhy şəklində məhz bu ayda çatdırılmışdır. Müsəlmanların Mədinədən müqəddəs şəhər Məkkəyə dönüşü, Məkkənin bütünlüklə müsəlmanların nəzarətinə keçməsi Ramazan ayında baş vermişdir.

Müsəlmanların oruc tutmasının fərz olması Hicri tarixinin (622-ci ildən başlayır) ikinci ilindən başlanmışdır. Müsəlmanlığa qədər də insanların oruc tutması hali olmuşdur. Bu barədə

Bəli, müqəddəs quran buyurur ki, oruc tutmaq ona görə vacibdir ki, bunun vasitəsilə müsəlmanlar pis əməllərdən və vərdişlərdən çəkinsinlər.

Həm də təkcə Ramazan ayında yox, bütün şüurlu həyatı boyunca Ramazan orucluğu insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, inam və iradənin saflaşması dövrüdür. Bu ayda imanla nəfs savaşır, əsil inanclı müsəlmanda iman qələbə çalır.

Müqəddəs kitabımız Qurani-Kərim Ramazan ayında nazil olmuşdur. Ancaq bunun Ramazanın hansı günündə nazil olması məlum deyil. Güman edilir ki, Qurani-Kərim Ramazan ayının son on günlüyünün tək günlərinin birində nazil olmuşdur. Bu günlər Ramazanın 19, 21, 23, 25, 27-ci gününə düşür ki, bu gecələrə qədr gecəsi deyilir. Müsəlmanlar həmin gecələri sübhə qədər yatmamalı, ibadət və zikrlə məşğul olmalıdırlar.

Orucluğun başa çatdığı gün, yəni Şəvval ayının 1-də (bu il miladi tarixi ilə iyul ayının 6-da) müsəlmanlar Fitr bayramı keçirirlər. Həmin gün müsəlmanlar bir-birini, qohumlarını, yaxınlarını təbrik edir, vəfat etmiş yaxın adamlarının qəbirlərini ziyarət edir, onların ruhuna dualar oxutdururlar.

Oruclug qurtarana, yəni Fitr bayramına qədər hər bir müsəlman ailəsi ailə üzvlərinin sayına görə kasıblara fitrə verirlər ki, onlar da Fitr bayramını keçirsinlər.

Fitrə təxminən 3 kq buğda, xurma, kişmiş dəyərində nəzərdə tutulur. Əlbəttə, bu rəqəmlər minimal rəqəmlərdir. Kifayət qədər maddi sərvətə malik olan ailələrin daha çox kasıba və daha çox miqdarda fitrə verməsi məqbul sayılır.

Bütün müsəlmanları qarşıdan gələn Ramazan bayramı münasibəti ilə təbrik edir, onlara tutduğunuz oruc, etdiyiniz dualar qəbul olsun deyirik.

***Tamara Həsənova***

# Bol məhsullu zəmilər



Bu il rayonumuzda 10 min hektardan çox sahədə taxıl yetişdirilib. Hər gün onlarla kombayn sahələrə çıxır, bol məhsullu zəmilərin taxılını biçirlər.

Navahı kəndi taxılçılıqla məşğul olan böyük kəndlərimizdən biridir. Torpaq da canlıdır. Onun da dili var və qayğıya möhtacdır. Əgər torpağı öz dilində danışdıra bilsək, nazını çəkib qayğıya bürüsək o zaman istədiyimizi zəhmətimizin qarşılığında ən keyfiyyətli formada əldə edə bilərik. Qürurumuz və bərəkət çeşməmiz olan torpağı əkib becərməsək qorumağa, qorumasaq əkib-becərməyə dəyməz. Ulu Dədə Qorquddan bu günümüzədək səslənən və şüurlara hakim kəsilən bu fikir uzun əsrlər boyu dəyərini itirməmişdir. Hər zaman aktual olan, insanları əkməyə, becərməyə və qorumağa səsləyən bu fikir Navahı kəndində də onilliklər boyu çörəyini torpaqdan çıxaran, hər il torpağı aqrotexniki qaydada əkib becərməklə onun nazını çəkən zəhmət adamlarının şüarına çevrilmişdir. Belə zəhmət adamlarından Ələsgər Tapdıqov cari əkin mövsümündə 30 ha sahədə arpa, 30 hektarda buğda, Bəşir Məmmədov 25 ha sahədə arpa, 35 hektarda buğda, İslam Əliyev 40 hektarda arpa, Rauf Etibarov 110 ha sahənin 70 hektarında arpa, 40 hektarında isə buğda, Hüseynağa İsmayılov 30 hektarda arpa, 25 hektar sahədə buğda əkmişlər. Zəhmətkeş torpaq mülkiyyətçiləri mövsüm ərzində əkin sahələrini aqrotexniki tələblər səviyyəsində, vaxtında suvarmış, malalamış, gübrələmiş, nəticədə yığım mövsümündə bol məhsul əldə etmişlər. İşgüzar fermerlər öhdələrində olan mövcud texnikanın, kombaynların köməyi ilə kəhrəba zəmilərdə taxıl biçinini optimal müddətdə itkisiz başa çatdırmışlar.

Navahı kəndi üzrə icra nümayəndəsi Mayıl Tapdıqov, kənd bələdiyyəsinin sədri Hüseyn İsmayılov becərmə və biçin zamanı yaranan problemlərin həllində fermerlərdən köməkliklərini əsirgəməmişlər. Navahı fermerləri ölkə Prezidenti cənab İlham Əliyevin kənd əməkçilərinə göstərdiyi dəstək və qayğıya cavab olaraq zəmilərdə bol məhsul yetişdirmiş və məhsulu itkisiz toplamışlar.

# Multikulturalizm həyat tərzimizdir

Rayon Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə şəhər Folklor klubunda "Multikulturalizm həyat tərzimizdir" adlı ədəbi-bədii tədbir keçirildi. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri, rayonumuzda yaşayan azsaylı xalqların nümayəndələri iştirak edirdi. Həmçinin Folklor Klubunun foyesində "2016-cı il Multikulturalizm ilidir" adlı kitab sərgisi təşkil olunmuşdu. Öncə tədbir iştirakçıları sərgiyə baxış keçirdilər. Tarix Diyarşünaslıq Muzeyinin direktoru Məhəmməd İsayev tədbir iştirakçılarına sərginin əhəmiyyəti, sərgidə nümayiş olunan ədəbiyyatlar haqqında ətraflı məlumat verdi, iştirakçıları maraqlandıran sualları cavablandırdı.

Tədbirdə çıxış edən rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov ("Multikulturalizm həyat tərzimizdir"), rayon Heydər Əliyev Mərkəzinin direktoru Aytən Zülfəliyeva ("Azərbaycan Multikulturalizim ölkəsidir"), şəhər 3 saylı tam orta məktəbin tarix müəllimi Mübariz Xəlilov ("Rayonumuzda yaşayan azsaylı xalqların nümayəndələri"), rayon MKS-nin əməkdaşı Gülzadə Rəşidova ("Multikulturalizm və ədəbiyyat") bildirdilər ki, mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli diyar, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan, tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu öndər Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin təşəbbüsü ilə multikulturalizm dövlət siyasətinin ən önəmli istiqamətlərindən birinə çevrilib. Azərbaycan bütün zamanlara örnək ola biləcək əsl tolerantlıq nümunəsidir.

Tədbirin bədii hissəsində "Fidanlar" körpələr-uşaq evinin balaca fidanlarının ifasında azsaylı xalqların etnik kökündən qaynaqlanan "Qaraçı", "Qaragöz", "Kalinka", "Naz eləmə" rəqsləri, şəhər 7 saylı tam orta məktəbin şagirdlərinin və məktəbin balaca yetirməsi Cəfər Cəfərzadənin ifasında alman xalqının incəsənət nümunələrindən olan alman mahnıları, şəhər 4 saylı tam orta məktəbin rus bölməsinin şagirdlərinin ifasında rus ədəbiyyatı silsiləsindən şeirlər, şəhər Musiqi məktəbinin şagirdlərinin ifasında skripkada "Romans", və fortopianoda "Rabsodiya" tədbir iştirakçılarına xoş anlar yaşatdı.

Rayon Heydər Əliyev Mərkəzinin dərnək üzvləri olan gənc rəssamların tədbirin gedişi ərzində çəkdikləri müxtəlif xalqların dövlət rəmzləri olan al-əlvan bayraqların nümayişi ilə tədbir sona çatdı.

***Səadət Kərimova***

# Əkin sahələri şor sulardan təmizlənmişdir

Abdulabad kəndi rayonumuzun ən geniş, axar-baxarlı, bağ-bağatlı ərazilərindən biridir. Kənd əhalisinin əsas məşğuliyyəti taxılçılıq və bostançılıqdır. Əkinçilikdə böyük təcrübəyə və səriştəyə malik olan Abdulabad camaatının xoşbəxtliyi ondadır ki, Azərbaycanın ən böyük çayı- əzəmətli Kür çayı bu kəndin lap yaxınlığından keçir. Bir ilə yaxındır ki, kəndin ərazisində əkin yerlərini şoran sulardan təmizləmək məqsədi ilə kənddə qurulan drenaj şəbəkəsindən səmərəli istifadə olunur. Abdulabad kənd bələdiyyəsinin sədri İsmayıl İsmayılov, Abdulabad kəndi üzrə icra nümayəndəsi Zaur Şirəliyev əlaqədar təşkilatların köməyi ilə mövcud texnikadan istifadə edilməklə kəndin ərazisində 1800 hektara yaxın sahənin şor sulardan təmizlənməsi işlərini müvəffəqiyyətlə aparmışlar. Abdulabad kəndində cari mövsümdə taxıl əkini ilə məşğul olan fermerlərdən Əlitehran Nəzərov, Ağasalam İsgəndərov, Mustafa Nəbiyev hər biri 20 hektar sahədə taxıl əkmiş, zəmilərdən bol məhsul götürməyə nail olmuşlar. Abdulabad fermerləri öhdələrində olan kombaynlarla biçini optimal müddətdə başa çatdırmışlar. Onlar Respublika Prezidenti cənab İlham Əliyevin aqrar sahəyə verdiyi önəmi, diqqət və qayğıdan, xüsusən taxılçılığın inkişafına göstərdiyi qayğıdan ruhlanaraq əkib becərdikləri məhsulu son sünbülədək itkisiz toplamaq üçün var qüvvə ilə çalışırlar.

***Nazim Fətixanoğlu***

# Rayonumuzu tanıdaq




Bu günlərdə rayon Mədəniyyət Mərkəzinin qarşısında təbliğat xarakterli sərgi təşkil olunmuşdur.

Sərgidə rayon Heydər Əliyev Mərkəzinin rəsm dərnəyinin üzvlərinin rəsm əsərləri, ulu öndər Heydər Əliyevin hakimiyyət dövrünü əhatə edən sənədlər, Mərkəzi Kitabxana üzrə "34-cü ilin tarixi", ölkə Prezidenti İlham Əliyevin daxili və xarici siyasəti, "Multikultralizm ili", Kənd təsərrüfatı ədəbiyyatı, yerli yazarlarımız, uşaq dünyası, "Nağıllar aləmi", Tarix-Diyarşünaslıq muzeyi üzrə " Hacıqabul abidələr diyarıdır" adlı tarixi əşyaların sərgisi, vaxtı ilə Hacıqabulda fəaliyyət göstərən Xalq teatrına aid sənədlər və şəkillər nümayiş olunmuşdur.

Dörd gün davam edən sərgidə sakinlər, məktəblilər Hacıqabulun tarixi, onun tarixi abidələri, həmçinin müxtəlif səpkidə yazılan kitablarla tanış olmuş, dünyagörüşlərini genişləndirmişlər.

***Mehdiqulu Fərəcov***

# Uşaq hüquqlarının qorunması ilə əlaqədar tədbir keçirildi




Rayonumuzun Ağacanlı və Meyniman kənd orta məktəblərində Uşaq hüquqlarının qorunması mövzusunda maarifləndirici tədbir keçirildi. Tədbirdə uşaq hüquqlarının qorunması, bununla bağlı ölkəmizdəki vəziyyət, qanunvericilik bazasının tətbiqi, uşaq hüquqlarının pozulmasının qarşısının alınması sahəsində görülən işlər barədə müzakirələr olundu. Rayon Polis Şöbəsinin azyaşlılarla iş üzrə polis inspektoru Şaiq Qulamov və sahə inspektoru Cavid Nəsirli tədbirdə çıxış edərək uşaqların hüquqlarının qorunması, bu sahədə görülən işlərdən danışdılar. Qeyd olundu ki, müasir Azərbaycan ailələri möhkəmliyi, övladlara bağlılığı ilə hər zaman seçilib. Buna baxmayaraq ailələrdə bəzən zorakılığa, uşaq hüquqlarının pozulması hallarına rast gəlinir. Hər bir uşaq öz hüququnu bilməli, bu sahədə maariflənməli və hüquqlarını qorumağı bacarmalıdır.

# HACIQABUL

№ 15 (649) 25 iyun 2016-cı il


# Uğur zirvəsinə aparan yolun təməl daşı

***Əlifba bütün elmlərin açarı və insanları elmə aparan yoldur. Elə biliklərimizin bünövrəsi də məhz əlifbadan başlanır. Ona görə də ənənəvi olaraq birincilər əlifbanı başa çatdıran kimi bunu xüsusi bir bayram kimi qeyd edirlər.***



Şəhər 4 saylı tam orta məktəbin I sinif şagirdləri hesabat konserti ilə onları sevənlərin qarşısında çıxış etdilər. "Əlifba bayramı"nın qeyd edilməsi məktəbimizdə gözəl bir ənənəyə çevrilib.

Məktəblilər bir ildə öyrəndiklərinin hesabatını bir gündə verməyə çalışdılar. Hər birinin üzündə çaşqınlıqla qarışmış sevinc hissi, bir az da narahatlıq vardı.

Ilk öncə Samirə İbrahimovanın rəhbərlik etdiyi 1b sinfinin balaca fidanları "Turpun nağılı", "Tülkü və cücə", "Üzüyola dovşan", "Sünbül" səhnəcikləri, milli rəqs nümunələri, vətənə məhəbbət, ana dilinə hörmət ruhunda yazılmış uşaq mahnılarının ifası ilə qonaqların görüşünə gəldilər.




Növbəti hesabat xarakterli görüş Bibixanım İmanovanın rəhbərlik etdiyi 1b sinfinin şagirdləri ilə oldu. "Mənim ilk müəllimim" adlı hesabat konserti ilə onları sevənlərin görüşünə gələn balacalar "Turpun nağılı", "Ayoqa", "Güzgü", "Tıq-tıq xanım", "Almalar", "Rüstəm bəy və Gülnaz xanım", "Mən kiməm" səhnəcikləri, xalqımızın tarixindən süzülüb gələn rəqs nömrələri, uşaq mahnıları ilə seyircilərə maraqlı anlar yaşatdılar.

Sonuncu hesabat görüşü rus bölməsində Yaqut Ələkbərovanın rəhbərlik etdiyi 1c sinfinin şirin-şəkər balaları ilə oldu.

İstedadlı uşaqlar bir-birindən gözəl əcnəbi rəqs nümunələri və maraqlı səhnəciklər göstərərək gələn qonaqların zövqünü oxşadılar. "Teremok", "Buratino", "Malina kem bıt" səhnəcikləri, "Çemu uçat v şkole 33 rodnıx sestris" mahnısı, "Teper mı pervoklassniki", "Dobrıy juk Flamenko" rəqsləri, hər səhnəciyə və rəqsə özəl olaraq dekorun və paltarların hazırlanması yüksək təşkilatçılıqdan xəbər verirdi.

Uşaqların xüsusi intonasiya və pafosla söylədikləri hərflərə və rəqəmlərə aid şeirlər valideynlər və müəllimlərin xüsusi marağına səbəb oldu.

# Məktəbimizin yeni uğuru



"İnsan neçə dil bilsə, o sayda şəxsdir" deyiblər. Məktəblərdə xarici dil fənlərinin tədrisi məhz bu işə xidmət edir.

Artıq ikinci ildir ki, məktəbimizin şagirdləri Rusiyanın Azərbaycandakı səfirliyinin və "Sodrujestvo" cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən rus dili və ədəbiyyatı üzrə Respublika olimpiadasında iştirak edir. Ötən il məktəbimizin şagirdi Elnur Səfərov birinci yerə layiq görülmüş, diplom və hədiyyə ilə təltif olunmuşdu. Bu il isə, VIII sinif şagirdi Elnarə Səfərova olimpiadada III yerə layiq görülmüşdür.

Bu günlərdə Bakı Slavyan Universitetində keçirilən təntənəli yığıncaqda olimpiada qaliblərinin mükafatlandırma mərasimi keçirildi. Mərasimdə Rusiyanın Azərbaycandakı səfiri V.Denisov və digər yüksək vəzifəli şəxslər qalibləri təbrik etdilər. Qaliblərə diplomlar və hədiyyələr təqdim olundu. Tədbirdə rəqs ansanbılları, gənc ifaçılar maraqlı çıxışlar etdilər.

Möhtəşəmliyi və rəngarəngliyi ilə seçilən bu tədbir uzun müddət yaddaşlardan silinməyəcək.

***Zərəngiz Abbasova,***
***Qarasu kənd tam orta***
***məktəbinin direktoru***

# Demokratik çəmiyyətdə insan hüquqlarının qorunması

Şəhər Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilati dəstəyi ilə Heydər Əliyev Mərkəzində "Demokratik çəmiyyətdə insan hüquqlarının qorunması" adlı tədbir keçirildi.Tədbirdə rayon ictimaiyyətinin, pedaqoji kollektivlərin nümayəndələri, Mərkəzdən bəhrələnən ailələr iştirak edirdi. Tədbirdə çıxış edən Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Aynur Qasımzadə, Mərkəzin əməkdaşı Yaqut Hüseynova, Heydər Əliyev Mərkəzinin direktoru Aytən Zülfəliyeva, Mərkəzin əməkdaşı Təranə Məlikova, MKS-nin əməkdaşı Leyla Əliyeva bildirdilər ki, demokratik cəmiyyətin əlamətlərindən biri onun təməlində duran qanunların aliliyidir. Bu cəmiyyətin təməl qanunları İnsan hüquqlarıdır. İnsan hüquqları cəmiyyətdə insanın fəaliyyət imkanlarını göstərir. Bu hüquqlar nə qədər genişdirsə, insanın fəaliyyət imkanları da bir o qədər genişdir.

Diskussiya şəraitində davam etdirilən görüşdə aliləri narahat edən məsələlər dinlənildi, bəzi məsələlərə aydınlıq gətirildi. Sonda "Satılmış həyat" sənədli filminə tamaşa edildi.

***Səadət Kərimova***

## Etibarsız sayılır

Atbulaq kənd sakini Güllərov Vaqif Ağaşirin oğlinun adına verilmiş 68 nömrəli pay torpağına dair akt itdiyi üçün etibarsız sayılır.




Növbəti "Əlifba" bayramı şəhər 1 saylı tam orta məktəbdə keçirildi. Böyük sevinclə, bəslədiyi ümidlərlə, qurduğu xəyallarla, ürəyində baş qaldıran arzularla övladının əlindən tutub məktəblərdə ilk zəngi səbirsizliklə gözləyən valideynlər, indi həmin körpə balaların əziz bayramına yığışmışdılar. Budur, birincilər əllərində dövlətimizin üçrəngli bayrağı, döşlərində "Əlifba" yazılmış lentlərlə, inamlı addımlarla bayram iştirakçılarının qarşısına çıxırlar. Dövlət Himninin oxunması ilə başlayan tədbirdə məktəbə yenicə qədəm basmış birincilər böyük inam və sevinclə müəllim və valideynlər qarşısında çıxış etdilər. Hüseyn Cavidin "Qız məktəbi", Əhməd Cəmilin "Can nənə bir nağıl de", Hüseyn Cavidin "Yavrum, quzum", "Ana dilim", Nizami Gəncəvinin "Kamil bir palançı olsa da insan, Yaxşıdır yarımçıq papaqçılıqdan, "Şah Qacar", "Xan qızı Natəvan" səhnəcikləri, Vətənə, anaya, müəllimə aid şeirləri valideynlər və müəllimlərin xüsusi marağına səbəb oldu. Şagirdlər eyni zamanda simvolik olaraq "Ana dili" sözünü yaradan hərflərə və "0"-dan "10"-a qədər olan rəqəmlərə aid şeirlər söylədilər. Birincilərin "Cənab Leytenant" mahnısının sədaları altında əllərində bayraq və əsgər formasında səhnəyə daxil olmaları və "Əmr ver, Ali Baş Komandan" səhnəciyi alqışlarla qarşılandı Bu zaman şagirdlərin məğrur duruşları və üzlərindəki ifadələr onların vətənə olan sevgisindən və məhəbbətindən xəbər verirdi. Şeir deyib mahnı oxumaqdan bir an belə yorulmayan məktəblilərin verdiyi bu hesabat tədbirində bir daha sübut olundu ki, Vətənin gələcəyi etibarlı əllərdədir.

Tədbirin sonunda çıxış edən məktəbin direktoru Cəmilə Ağamaliyeva və birincilərin sinif rəhbəri Gülyanaq İbrahimova balaca fidanlara gələcək təhsillərində uğurlar arzuladılar.

***Səadət Kərimova***

## Allah rəhmət eləsin!

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi RİHB-nın birinci müavini Sahib Aslanova qardaşı

**Teyyubun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi RİHB-nın müavini Fikrət Qasımova atası

**Ağababa müəllimin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

"Hacıqabul" qəzetinin kollektivi RİHB-nın müavini Fikrət Qasımova atası

**Ağababa müəllimin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

"Hacıqabul" qəzetinin kollektivi RİHB-nın birinci müavini Sahib Aslanova qardaşı

**Teyyubun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi Sahib Aslanova qardaşı

**Teyyubun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Mərkəzi rayon Xəstəxanasının baş həkimi Beydulla Qarayev və kollektivi Sahib Aslanova qardaşı

**Teyyubun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov və kollektivi Sahib Aslanova qardaşı

**Teyyubun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

58 saylı Hacıqabul-Kürdəmir DSK-nın sədri Məhəmməd Hacıyev və rayon Statistika İdarəsinin müdiri Elman Nəcəfov Sahib Aslanova qardaşı

**Teyyubun**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi Fikrət Qasımova atası

**Ağababa müəllimin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Beydulla Qarayev və kollektivi Fikrət Qasımova atası

**Ağababa müəllimin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Rayon Statistika İdarəsinin müdiri Elman Nəcəfov və 58 saylı Hacıqabul-Kürdəmir DSK-nın sədri Məhəmməd Hacıyev Fikrət Qasımova atası

**Ağababa müəllimin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov və kollektivi Fikrət Qasımova atası

**Ağababa müəllimin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Rayon VVAQ Şöbəsinin müdiri Camal Cəfərova və rayon Notariat Kontorunun müdiri Mühəddin Zeynalov Fikrət Qasımova atası

**Ağababa müəllimin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

Camal Cəfərova və Mühəddin Zeynalov RİH Başçısının 1-ci müavini Sahib Aslanova qardaşı

**Teyyubun**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

Şahmurad və Bəxtiyar Aslanovlar Fikrət Qasımova atası

**Ağababa müəllimin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son dakika MMC" mətbəəsində çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200